**“Azər Türk Bank” Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə**

Hörmətli səhmdar!

“Banklar haqqında” Azərbaycan Respublikası Qanununun 24.5-ci maddəsinə əsasən, “Azər-Türk Bank” Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra - Bank) İdarə Heyəti sizin nəzərinizə çatdırır ki, 25 avqust 2026-cı il saat 12.00-da Bakı şəhəri, C. Məmmədquluzadə küç. 85; 192/193 ünvanında yerləşən Bankın inzibati binasında Bankın səhmdarlarının növbədənkənar ümumi yığıncağı (bundan sonra – ümumi yığıncaq) keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyinə aşağıdakı məsələ daxil edilmişdir:

1. “Azər-Türk Bank” Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinə dəyişiklik edilməsi.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-3.2-ci maddəsini və Bankın nizamnaməsinin 7.6-cı bəndini nəzərə alaraq qeyd edirik ki, ümumi yığıncağın gündəliyindəki məsələlərə münasibətinizi dəqiq və şərtsiz bildirmək (lehinə, əleyhinə və bitərəf) və imzanız qanunvericilikdə müəyyənləşdirilmiş qaydada (notarial və s.) təsdiq olunmaq, habelə şəxsiyyət vəsiqənizin surətini təqdim etmək şərtilə bildirişə əlavə olunan səsvermə bülleteni formasını dolduraraq qapalı zərfdə Bakı şəhəri, C. Məmmədquluzadə küç. 85; 192/193 ünvanında, Bankın inzibati binasına 2026-cı il avqustun 25-dək göndərməklə səsvermədə qiyabi iştirak edə bilərsiniz.

Yuxarıda qeyd olunan qaydada təqdim edilmiş zərflərin açılması, eləcə də elektron qaydada verilmiş səslərin sayılması ümumi yığıncağın keçirildiyi gün həyata keçiriləcəkdir.

İclas materialları ilə tanış olunması üçün Bankın Korporativ katibi Sona Məmmədli ilə (elektron poçt: sona.m@atb.az, tel: +99470-739-30-41) əlaqə saxlaya bilərsiniz.